***XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI***
***METHODS OF TEACHING FOREIGN LANGUAGES***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ***

*UOT: 372.881.111.1*

***Günay Xəzail qızı Şirəliyeva***
*Azərbaycan Dillər Universit'tinin dosenti*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/ 0009-0003-1075-2273*
*E-mail:shiraliyevagunay196@gmail.com*
*https://doi.org/10.69682/arti.2026.93(3).107-113*

# YUXARI KURSLARDA MƏZMUNLA İNGİLİS DİLİNİN İNTEQRASİYASI: CLIL MODELİNİN TƏDRİS STRATEGİYALARI VƏ ÇAĞIRIŞLARI

***Gunay Khazail Shiraliyeva***
*associate professor of Azerbaijan University of Languages,*
*doctor of philosophy in pedagogy*

# INTEGRATION OF ENGLISH WITH CONTENT IN HIGHER COURSES: TEACHING STRATEGIES AND CHALLENGES OF THE CLIL MODEL

***Гюнай Хазаил гызы Ширалиева***
*доцент Азербайджанского Университета Языков,*
*доктор философии по педагогике*

# ИНТЕГРАЦИЯ АНГЛИЙСКОГО ЯЗЫКА С ПРЕДМЕТНЫМ СОДЕРЖАНИЕМ НА СТАРШИХ КУРСАХ: СТРАТЕГИИ ПРЕПОДАВАНИЯ И ВЫЗОВЫ МОДЕЛИ CLIL

**Xülasə.** Bu məqalədə yuxarı kurslarda təhsil alan ingilis dili ixtisası tələbələri üçün məzmunla dilin inteqrasiyasına əsaslanan Content and Language Integrated Learning (CLIL) yanaşmasının nəzəri əsasları, pedaqoji prinsipləri və tətbiqi çətinlikləri təhlil olunur. Qloballaşma və akademik mobilliyin artması fonunda ingilis dili yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda akademik diskursun əsas komponentinə çevrilmişdir. Bu kontekstdə akademik oxu, yazı, dinləmə və danışıq bacarıqlarının inkişafı ali təhsildə prioritet məsələ kimi çıxış edir. Məqalədə CLIL-in Vıqotskinin sosial-konstruktivizm nəzəriyyəsi, Cummins-in BICS və CALP modeli, eləcə də məzmun əsaslı dil təlimi yanaşmaları ilə əlaqəsi izah edilir. CLIL-in 4C modeli – məzmun, ünsiyyət, kognisiya və mədəniyyət – pedaqoji baxımdan çoxölçülü çərçivə kimi təqdim olunur. Tədqiqatda göstərilir ki, CLIL yanaşması akademik dil bacarıqlarının paralel və kontekstual inkişafına şərait yaradır, tələbələrin tənqidi düşünmə və analitik bacarıqlarını gücləndirir. Eyni zamanda, CLIL-in ali təhsildə tətbiqi tələbə motivasiyasını artırır və öyrənməni daha məqsədyönlü edir.
***Açar sözlər:*** *CLIL yanaşması; akademik dil bacarıqları; dil və məzmunun inteqrasiyası; ali təhsil; ingilis dilinin tədrisi; pedaqoji strategiyalar; müəllim hazırlığı*

**Abstract.** This article examines the theoretical foundations, pedagogical principles, and implementation challenges of the Content and Language Integrated Learning (CLIL) approach in the context of upper-level English language major students. In an era of globalization and increased academic mobility, English has become not only a means of communication but also a core medium of academic discourse. Consequently, the development of academic reading, writing, listening, and speaking skills has become a key priority in higher education. The study analyzes CLIL through major theoretical frameworks, including Vygotsky's sociocultural theory, Cummins' BICS and CALP distinction, and content-based language instruction. Particular attention is given to the 4C framework of CLIL – Content, Communication, Cognition, and Culture – which provides an integrative pedagogical structure for language and subject learning.
***Keywords:*** *CLIL approach; academic language skills; content and language integration; higher education; English language teaching; pedagogical strategies; teacher training*

*Günay Xəzail qızı Şirəliyeva*

**Аннотация.** В данной статье рассматриваются теоретические основы, педагогические принципы и практические трудности реализации подхода Content and Language Integrated Learning (CLIL) в обучении студентов старших курсов, специализирующихся в области английского языка. В условиях глобализации и роста академической мобильности английский язык перестал быть исключительно средством общения и превратился в основной инструмент академического дискурса. В связи с этим развитие академических навыков чтения, письма, аудирования и говорения приобретает ключевое значение в системе высшего образования. В статье анализируется CLIL с опорой на социокультурную теорию Л. С. Выготского, модель BICS и CALP Дж. Камминса, а также концепции предметно-ориентированного обучения языку. Особое внимание уделяется модели 4C (Content, Communication, Cognition, Culture), которая представляет собой интегративную педагогическую основу CLIL.

***Ключевые слова:*** *подход CLIL, академические языковые навыки, интеграция языка и содержания, высшее образование, преподавание английского языка, педагогические стратегии, подготовка преподавателей*

## Giriş

Müasir qloballaşma dövründə ingilis dili təkcə ünsiyyət vasitəsi olmaqdan çıxmış, eyni zamanda elmi dil və akademik səriştələrin əsas elementinə çevrilmişdir. Akademik dil bacarıqları tələbələrin universitet səviyyəsində uğur qazanmasının əsas göstəricilərindən biridir və bu bacarıqlar əhatəli oxu, akademik yazı, nitq və dinləmə qabiliyyətlərini özündə birləşdirir. Ənənəvi dil tədrisi yanaşmaları bu bacarıqları ayrıca və ayrı-ayrı komponentlər kimi öyrədir, halbuki real dünya tələbləri bu bacarıqların məzmunla birlikdə inteqrasiya olunmasını tələb edir. Bu kontekstdə Content and Language Integrated Learning (CLIL) yanaşması müasir təhsil sistemlərində diqqət mərkəzinə çıxmışdır.

CLIL ingilis dili və məzmun sahəsinin eyni zamanda öyrənilməsini təmin edən innovativ pedaqoji mexanizmdir. CLIL-in əsas məqsədi yalnız dil bacarıqlarını inkişaf etdirmək deyil, eyni zamanda tələbələrə məzmunla əlaqəli biliyi təqdim etməsidir. Bunun nəticəsində tələbələr müəyyən bir fənnin konseptual aspektlərini öyrənərkən eyni zamanda həmin sahəyə aid dil strukturunu və terminologiyanı da mənimsəyirlər. Bu baxımdan CLIL yanaşması dil və məzmunu sintez edən müasir pedaqoji model hesab olunur və bu modeli tətbiq etməklə ingilis dili ixtisası tələbələrinin akademik dil bacarıqlarına daha geniş və dərin yanaşma təmin etmək olur.

Məqalənin əsas məqsədi CLIL yanaşmasının ingilis dili ixtisası tələbələrinin akademik dil bacarıqlarının inkişafına təsirini nəzəri cəhətdən araşdırmaqdır. Məqalə çərçivəsində CLIL-in elmi-nəzəri əsasları, akademik dil bacarıqlarının tərifi, CLIL və akademik dil əlaqəsi, həmçinin bu yanaşmanın tətbiqi ilə bağlı müasir təhsil araşdırmaları təhlil olunacaqdır. Xüsusilə yuxarı kurslarda təhsil alan tələbələr artıq yalnız ümumi dil bilikləri ilə kifayətlənmir, onlar akademik diskursu anlamaq, fənn üzrə məqalələri təhlil etmək və elmi müzakirələrdə fəal iştirak etmək bacarığına ehtiyac duyurlar. Bu mərhələdə CLIL modeli tələbələrin tənqidi düşünmə, analitik yanaşma və müstəqil öyrənmə bacarıqlarını gücləndirən effektiv vasitə kimi çıxış edir. Eyni zamanda, CLIL dərsləri tələbələrdə motivasiyanı artırır, çünki dil real və mənalı akademik məzmun vasitəsilə təqdim olunur.

## CLIL Yanaşmasının Nəzəri Aspektləri

Content and Language Integrated Learning (CLIL) yanaşması XX əsrin sonlarında Avropada ikidilli təhsil modelləri ilə əlaqədar olaraq meydana çıxmışdır. Bu yanaşma müəyyən bir fənnin məzmunu ilə ingilis dilinin birgə öyrənilməsinə yönəlib və dil öyrənənlərin həm məzmun biliklərini, həm də dil bacarıqlarını eyni vaxtda inkişaf etdirməyə xidmət edir [1].

CLIL-in yaranmasının əsas səbəblərindən biri Avropa İttifaqının çoxdillilik siyasətidir. Qərb Avropa ölkələrinin təhsil sistemlərində CLIL yanaşması məzmun sahələri ilə ingilis dili öyrənilməsini inteqrasiya edərək tələbələrin real dünya dil istifadəsinə uyğun bacarıqlar qazanmasına şərait yaradır [2]. CLIL-in pedaqoji konsepsiyası müxtəlif nəzəri çərçivələrə əsaslanır. Bunlardan ən mühüm olanları Vıqotskının sosial-konstruktivizm nəzəriyyəsi və Cummins'in akademik dil nəzəriyyələridir. Vygotskiyə görə dil və biliyin öyrənilməsi sosial qarşılıqlı əlaqə yolu ilə baş verir və CLIL də bu qarşılıqlı əlaqə mühitini təmin edən ən effektiv metod kimi qiymətləndirilir.

Eyni zamanda Cummins'in Basic Interpersonal Communicative Skills (BICS) və Cognitive Academic Language Proficiency (CALP)

anlayışları vasitəsilə akademik dil bacarıqlarının inkişafı nəzəri çərçivədə təhlil edilir: BICS gündəlik ünsiyyət bacarıqlarını, CALP isə akademik mətnlərin anlaşılması və yaradılması üçün zəruri olan dərin şəkildə düşünmə və dil strukturlarının mənimsənilməsini ehtiva edir. CLIL yanaşmasının nəzəri əsasları həmçinin tətbiqi dilçilik və koqnitiv psixologiya sahəsində aparılan tədqiqatlarla da dəstəklənir. Araşdırmalar göstərir ki, məzmun əsaslı dil təlimi tələbələrin diqqətini yalnız dil formalarına deyil, mənaya və anlayışların qurulmasına yönəldir ki, bu da dilin daha davamlı şəkildə mənimsənilməsinə şərait yaradır [3]. Bu baxımdan CLIL, Krashen-in "input hypothesis" nəzəriyyəsi ilə də əlaqələndirilə bilər; çünki öyrənənlər üçün təqdim olunan məzmun anlaşılan, lakin idrak baxımından çətin olan dil materialı üzərində qurulur.

Bundan əlavə, CLIL-in 4C modeli (Content, Communication, Cognition, Culture) pedaqoji baxımdan inteqrativ çərçivə yaradır və öyrənmə prosesini çoxölçülü şəkildə təşkil edir [4]. Bu model tələbələrin yalnız dil bacarıqlarını deyil, həm də mədəniyyətlərarası kompetensiyalarını inkişaf etdirməyi hədəfləyir. Müasir tədqiqatlar CLIL-in ali təhsil səviyyəsində akademik savadlılığın, tənqidi düşünmənin və öyrənən muxtariyyətinin formalaşmasına əhəmiyyətli töhfə verdiyini təsdiqləyir [5]. Beləliklə, CLIL nəzəri baxımdan çoxşaxəli və elmi əsaslandırılmış pedaqoji yanaşma kimi qiymətləndirilir.

Müasir tədqiqatlar CLIL-in ali təhsil səviyyəsində akademik savadlılığın, tənqidi düşünmənin və öyrənən muxtariyyətinin formalaşmasına əhəmiyyətli töhfə verdiyini təsdiqləyir [5]. Xüsusilə CLIL müəllim hazırlığı və pedaqoji strategiyalar baxımından innovativ yanaşma kimi qiymətləndirilir və bu sahədə aparılan beynəlxalq araşdırmalar CLIL-in ali təhsildə effektivliyini elmi əsaslarla sübut edir **[7]**.

**CLIL-in pedagoji prinsipləri**

CLIL yanaşmasının təməlində dörd əsas prinsip dayanır: Məzmun (Content), Ünsiyyət (Communication), Kognition (Cognition) və Mədəniyyət (Culture). Bu dörd prinsip, CLIL-i heç bir ayrı-ayrı fəndən ibarət olmayan, daha çox dil və məzmunu sintez edən bir model kimi müəyyən edir [1]. Məzmun tələbələrin müəyyən bir akademik sahədə bilik əldə etməsini təmin edir, ünsiyyət isə həmin bilikləri ifadə etmək üçün tələb olunan dil bacarıqlarını inkişaf etdirir. Kognition isə tələbələrin tənqidi düşünmə və problem həll etmə bacarıqlarını gücləndirir. Mədəniyyət isə qloballaşma şəraitində müxtəlif mədəniyyətlərarası ünsiyyət və təcrübə mübadiləsini təmsil edir.

CLIL-in pedaqoji prinsipləri eyni zamanda konstruktivist təlim yanaşmasına əsaslanır və biliklərin ötürülməsindən daha çox, onların tələbələr tərəfindən fəal şəkildə qurulmasını hədəfləyir. Bu modeldə müəllim bilik verən əsas mənbə rolundan çıxaraq, öyrənmə prosesini istiqamətləndirən və dəstəkləyən fasilitator funksiyasını yerinə yetirir. Scaffolding (pilləli dəstək) mexanizmi CLIL-in mühüm komponentlərindən biri kimi çıxış edir və tələbələrin mürəkkəb məzmunu mərhələli şəkildə mənimsəməsinə imkan yaradır. Dil dəstəyi vizual materiallar, açar terminlər, konsept xəritələri və strukturlaşdırılmış tapşırıqlar vasitəsilə təmin olunur. Bundan əlavə, CLIL-in pedaqoji prinsipləri həmçinin fəaliyyətə əsaslanan öyrənmə və dilin funksional istifadəsi anlayışları ilə sıx bağlıdır. Tədqiqatlar göstərir ki, məzmun əsaslı tapşırıqlar vasitəsilə təqdim olunan dil daha məqsədyönlü və davamlı şəkildə mənimsənilir, çünki tələbələr dili real akademik problemlərin həlli üçün alət kimi istifadə edirlər [2]. Bu baxımdan CLIL tapşırıqları Bloom taksonomiyasının yuxarı səviyyələrinə – analiz, sintez və qiymətləndirmə mərhələlərinə uyğun şəkildə qurulur ki, bu da koqnitiv dərinliyi artırır [3].

Bundan əlavə, CLIL qiymətləndirmə prosesində də formativ yanaşmanı ön plana çəkir. Davamlı rəy, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə üsulları tələbələrin öyrənmə məsuliyyətini artırır və öyrənmə prosesini şəffaf edir [4]. Müasir araşdırmalar göstərir ki, bu prinsiplərə əsaslanan CLIL mühiti tələbələrin akademik motivasiyasını yüksəldir və öyrənmə nəticələrinin daha stabil olmasına şərait yaradır [5]. Beləliklə, CLIL-in pedaqoji prinsipləri dil, məzmun və idrak inkişafını vahid tədris çərçivəsində birləşdirən effektiv model kimi dəyərləndirilir.

**Akademik dil bacarıqlarının mənası və strukturu**

Akademik dil bacarıqları ingilis dilini bilən hər bir tələbənin istənilən akademik mühitdə uğur qazanması üçün vacibdir. Bu bacarıqlar əsasən *dörd əsas komponentdən* ibarətdir: akademik oxu, akademik yazı, akademik dinləmə və akademik danışıq. Akademik oxu tələbələrə

müxtəlif elmi mətnləri başa düşmək və təhlil etmək imkanı verir. Akademik yazı tələbələrdən əldə etdikləri bilikləri məntiqi şəkildə təsvir etməyi tələb edir. Akademik dinləmə və danışıq isə tələbələrin dərslərdə, seminar və konfranslarda fəal iştirak etmələri üçün zəruridir.

CLIL yanaşmasında bu bacarıqlar bir-birindən ayrılmadan, məzmunla birlikdə inkişaf etdirilir. Məsələn, bir biologiya və ya tarix mövzusunda dərsi ingilis dilində keçərkən tələbələr həmin fənnə aid terminologiyanı öyrənir və eyni zamanda məzmunu anlamaq üçün akademik oxu və dinləmə bacarıqlarını istifadə edirlər. Beləliklə, CLIL akademik dil bacarıqlarını yalnız dilin quruluşu kimi deyil, həm də məzmunun mənimsənilməsi kontekstində inkişaf etdirməyi hədəfləyir [3].

Akademik dil bacarıqları yalnız dil biliyinin yüksək səviyyədə olmasını deyil, həm də akademik diskursun norma və konvensiyalarını anlamağı tələb edir. Bu bacarıqlar tələbələrin mətnlərdə arqument quruluşunu müəyyən etməsinə, müəllif mövqeyini qiymətləndirməsinə və elmi terminologiyadan düzgün istifadə etməsinə imkan yaradır. Akademik yazı prosesində strukturlaşdırılmış mətn qurmaq, mənbələrə istinad etmək və obyektiv üslubdan istifadə əsas tələblər sırasındadır. Dinləmə və danışıq bacarıqları isə təkcə informasiyanı qəbul etməklə məhdudlaşmır, eyni zamanda müzakirə aparmaq, suallar vermək və elmi fikirləri şifahi formada əsaslandırmaq bacarığını formalaşdırır. Bu baxımdan akademik dil bacarıqları sosial və intellektual fəaliyyətlə sıx bağlıdır. Akademik oxu bacarığı tələbələrdən kompleks məzmunları başa düşməyi, məntiqi nəticələr çıxarmağı və tənqidi düşünməyi tələb edir. CLIL-in strukturunda akademik oxu fəaliyyətləri tez-tez elmi mətnlərin təhlili, məqalə oxu və qısa xülasə yazma kimi tapşırıqlar vasitəsilə həyata keçirilir.

Bu növ tapşırıqlar tələbələrin məzmunla əlaqəli yeni terminologiyanı mənimsəməsinə və akademik strukturlaşdırılmış mətnləri anlamalarına imkan yaradır. Eyni zamanda, oxu prosesi zamanı tələbələr arqumentlərin quruluşunu, əsas və köməkçi ideyaları ayırd etməyi və mətnlərarası əlaqələr qurmağı öyrənirlər ki, bu da onların analitik bacarıqlarını gücləndirir. Bundan əlavə, CLIL mühitində oxu tapşırıqları tez-tez müqayisə, sintez və qiymətləndirmə tələb edən fəaliyyətlərlə zənginləşdirilir ki, bu da oxu bacarığının daha dərin səviyyədə formalaşmasına şərait yaradır.

Akademik yazı bacarığı isə tələbələrin öz fikirlərini formal akademik dildə sistemli və əsaslandırılmış şəkildə ifadə etməsidir. Bu bacarıq CLIL çərçivəsində tədqiqat yazıları, esse və layihə hesabatları vasitəsilə inkişaf etdirilir. Yazı prosesi zamanı tələbələr elmi üslub normalarına riayət etməyi, terminologiyadan düzgün istifadə etməyi və mənbələrlə işləmə bacarığını mənimsəyirlər. Eyni zamanda, planlaşdırma, redaktə və refleksiya mərhələləri yazının keyfiyyətini artırır. Tədqiqatlar göstərir ki, CLIL yanaşması tələbələrin yazılı ifadə qabiliyyətini və məntiqi düşüncə səviyyəsini əhəmiyyətli dərəcədə gücləndirir [1], [3].

Akademik dinləmə bacarığı universitet mühitində keçirilən mühazirələri, seminar müzakirələrini və təqdimatları başa düşməyi əhatə edir. CLIL yanaşması tələbələri müəyyən mövzu üzrə məzmun məlumatını ingilis dilində mənimsəməyə təşviq etdiyindən, tələbələr akademik dinləmə bacarıqlarını sistemli şəkildə inkişaf etdirirlər. Xüsusilə fənnə aid terminologiyanın, əsas anlayışların və məntiqi ardıcıllığın dinləmə prosesi zamanı dərk edilməsi tələbələrin ümumi akademik səriştəsini gücləndirir. Bundan əlavə, CLIL dərslərində dinləmə fəaliyyəti adətən qeydlərin aparılması, əsas ideyaların müəyyənləşdirilməsi və müzakirəyə hazırlıq kimi tapşırıqlarla müşayiət olunur ki, bu da tələbələrin məlumatı strukturlaşdırılmış şəkildə emal etməsinə şərait yaradır.

Eyni zamanda, CLIL çərçivəsində həyata keçirilən interaktiv fəaliyyətlər – debatlar, qrup müzakirələri, şifahi təqdimatlar və sual-cavab sessiyaları – tələbələrə fikirlərini akademik üslubda ifadə etmək imkanı yaradır. Bu proses tələbələrin nitq axıcılığını, arqument qurma və elmi terminologiyadan düzgün istifadə bacarıqlarını formalaşdırır. Şifahi təqdimatlar zamanı tələbələr məzmunu auditoriyaya uyğunlaşdırmağı və fikirlərini məntiqi ardıcıllıqla təqdim etməyi öyrənirlər. Bir sıra tədqiqatlar göstərir ki, CLIL tələbələri müxtəlif auditoriyalarda dil və məzmunu paralel şəkildə tətbiq etməyə yönəltdiyi üçün akademik danışıq bacarıqlarının inkişafını sürətləndirir və nitq prosesini daha təbii, inamlı və məqsədyönlü edir.

**CLIL-in Təhsil Sistemində Rolu və Tətbiqi Çətinliklər**

CLIL yalnız pedaqoji yanaşma deyil, həm də təhsil siyasətləri çərçivəsində sistemli şəkildə dəstəklənməsi tələb olunan bir modeldir. Bir çox Avropa ölkələrində CLIL artıq milli təhsil strategiyalarında yer alır və tələbələrə erkən mərhələlərdən başlayaraq dil və məzmunu inteqrasiya edən tədris modelləri təqdim edir [2]. Bu yanaşma təhsil sistemində çevikliyi artırmaqla yanaşı, tələbə mərkəzli tədris metodlarının və beynəlxalq standartlara uyğun kurikulumların formalaşmasına şərait yaradır.

Bununla yanaşı, CLIL-in tətbiqi bir sıra çətinliklərlə müşayiət olunur. Əsas problemlərdən biri müəllimlərin həm dil, həm də fənn üzrə kifayət qədər hazırlıqlı olmamasıdır. Digər çətinliklərə tədris materiallarının məhdudluğu, qiymətləndirmə mexanizmlərinin qeyri-müəyyənliyi və tələbələrin fərdi dil səviyyələri arasındakı fərqlər daxildir. Bu səbəbdən CLIL-in uğurlu tətbiqi üçün institusional dəstək, davamlı müəllim hazırlığı proqramları və uyğun metodoloji çərçivənin yaradılması vacib hesab olunur.

CLIL-in təhsil siyasətləri səviyyəsində dəstəklənməsi onun dayanıqlı və genişmiqyaslı tətbiqi üçün əsas şərtlərdən biridir. Avropa Şurası və Avropa Komissiyasının çoxdillilik və təhsil strategiyaları CLIL-i əsas alətlərdən biri kimi təqdim edir və bu yanaşmanın təhsil keyfiyyətinin yüksəldilməsində mühüm rol oynadığını vurğulayır [1][2]. Xüsusilə ali təhsil müəssisələrində CLIL-in tətbiqi tələbələrin beynəlxalq akademik mühitə inteqrasiyasını sürətləndirir və onların rəqabətqabiliyyətli səriştələr qazanmasına şərait yaradır [3].

Lakin bir çox tədqiqatlar göstərir ki, CLIL-in uğurlu tətbiqi üçün strukturlaşdırılmış qiymətləndirmə modellərinin olmaması və metodoloji standartların qeyri-kafi olması ciddi problemlər yaradır [4]. Bundan əlavə, müəllimlərin CLIL metodologiyası üzrə xüsusi təlim keçməməsi tədris prosesində balanssızlığa səbəb ola bilər [5]. Bu baxımdan institusional səviyyədə strateji planlaşdırma, resurs təminatı və müəllimlər üçün davamlı peşəkar inkişaf proqramlarının yaradılması CLIL-in effektiv və davamlı tətbiqi üçün vacib hesab olunur.

Bununla yanaşı, CLIL-in tətbiqi bir sıra çətinliklərlə müşayiət olunur. Əsas problemlərdən biri müəllimlərin həm dil, həm də fənn üzrə kifayət qədər hazırlıqlı olmamasıdır. Digər çətinliklərə tədris materiallarının məhdudluğu, qiymətləndirmə mexanizmlərinin qeyri-müəyyənliyi və tələbələrin fərdi dil səviyyələri arasındakı fərqlər daxildir. Azərbaycanda aparılan tədqiqatlar da CLIL-in tətbiqi zamanı metodoloji resursların məhdudluğu və müəllim hazırlığı məsələlərinin əsas maneələrdən biri olduğunu göstərir [8].

**Müəllim hazırlığı və peşəkarlıq**

CLIL-in uğurla tətbiqi üçün müəllimlər yalnız ingilis dilində səlis ünsiyyət bacarığına malik olmamalı, eyni zamanda tədris etdikləri məzmun sahəsi üzrə yüksək səviyyəli pedaqoji və didaktik kompetensiyalara sahib olmalıdırlar. Bu isə mövcud müəllim hazırlığı proqramlarının yenidən strukturlaşdırılmasını və ikili ixtisaslaşmanı nəzərdə tutan çevik modellərin yaradılmasını zəruri edir. CLIL müəllimləri həm dil təlimçisi, həm də fənn üzrə ekspert rolunu eyni vaxtda icra etdikləri üçün dərs planlaşdırılması, qiymətləndirmə və öyrənmə nəticələrinin izlənməsi daha mürəkkəb xarakter alır.

Azərbaycanda müəllim hazırlığı sahəsində aparılan müzakirələr göstərir ki, ingilis dili müəllimlərinin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi, metodoloji hazırlığı və CLIL-ə uyğun tədris bacarıqları baxımından müəyyən boşluqlar mövcuddur ki, bu da yanaşmanın genişmiqyaslı tətbiqini çətinləşdirə bilər [4]. Xüsusilə fənn müəllimlərinin akademik ingilis dili üzrə kifayət qədər hazırlığa malik olmaması CLIL-in effektivliyinə mənfi təsir göstərən amillərdən biridir.

Bu baxımdan müəllimlərin peşəkarlığının artırılması məqsədilə davamlı ixtisasartırma proqramlarının təşkili, CLIL-ə yönəlmiş metodoloji təlimlərin keçirilməsi və beynəlxalq təcrübələrin yerli təhsil sisteminə uyğunlaşdırılması mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, mentorluq mexanizmlərinin tətbiqi, müəllimlər arasında əməkdaşlığın gücləndirilməsi və innovativ tədris texnologiyalarından istifadə CLIL modelinin dayanıqlı və effektiv şəkildə həyata keçirilməsinə töhfə verə bilər.

Beynəlxalq təcrübə göstərir ki, CLIL müəllimlərinin hazırlanmasında ən effektiv yanaşmalardan biri fənn müəllimləri ilə dil müəllimləri arasında əməkdaşlığa əsaslanan komanda-tədris (team teaching) modelidir. Bu model müəllimlərin həm məzmunun, həm də dilin tədrisində qarşılıqlı şəkildə bir-birini tamamlamasına imkan yaradır və tədrisin keyfiyyətini artırır [1][2]. Eyni zamanda, CLIL müəllimləri üçün

xüsusi hazırlanmış peşəkar inkişaf proqramları onların qiymətləndirmə strategiyaları, diferensiallaşdırılmış tədris və scaffolding üsulları üzrə bacarıqlarını gücləndirir [3]. Araşdırmalar göstərir ki, CLIL metodologiyası üzrə sistemli təlim keçmiş müəllimlər tələbələrin akademik dil bacarıqlarının inkişafında daha davamlı nəticələr əldə edirlər [5]. Bu baxımdan, Azərbaycanda CLIL-in effektiv tətbiqi üçün ali təhsil müəssisələri və təhsil siyasətini formalaşdıran qurumlar arasında koordinasiyanın gücləndirilməsi, eləcə də beynəlxalq CLIL şəbəkələri ilə əməkdaşlığın genişləndirilməsi məqsədəuyğun hesab olunur [6]. Bu tədbirlər CLIL modelinin yerli kontekstdə uyğunlaşdırılmasına və uzunmüddətli dayanıqlığına xidmət edə bilər.

Araşdırmalar göstərir ki, CLIL metodologiyası üzrə sistemli təlim keçmiş müəllimlər tələbələrin akademik dil bacarıqlarının inkişafında daha davamlı nəticələr əldə edirlər **[7]**. Bu baxımdan, Azərbaycanda CLIL-in effektiv tətbiqi üçün ali təhsil müəssisələri və təhsil siyasətini formalaşdıran qurumlar arasında koordinasiyanın gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir **[8]**.

**Nəticə**

Bu məqalədə CLIL (Content and Language Integrated Learning) yanaşmasının nəzəri əsasları və ingilis dili ixtisası tələbələrinin akademik dil bacarıqlarının inkişafındakı rolu nəzəri baxımdan təhlil edilmişdir. CLIL-in əsas prinsipləri, akademik dil bacarıqlarının strukturu və bu bacarıqların inkişaf mexanizmləri elmi-konseptual çərçivədə sistemli şəkildə izah olunmuşdur.

Aparılan nəzəri təhlil əsasında aşağıdakı nəticələr əldə edilmişdir:

1. CLIL yanaşması akademik dil bacarıqlarının inkişafında effektiv pedaqoji model kimi çıxış edir. Məzmun və dilin inteqrasiyalı şəkildə tədrisi tələbələrin akademik dili daha dərindən və funksional şəkildə mənimsəməsinə şərait yaradır.
2. Akademik oxu və yazı bacarıqları CLIL çərçivəsində daha səmərəli inkişaf edir. Bu yanaşma tələbələri müxtəlif fənn sahələrinə aid akademik mətnlərlə işləməyə təşviq edir və onların elmi yazı bacarıqlarının formalaşmasına müsbət təsir göstərir.
3. Akademik dinləmə və danışıq bacarıqları CLIL-in tətbiqi ilə güclənir. Tələbələr real akademik kontekstlərdə dil və məzmunu paralel şəkildə öyrənərək öz şifahi ünsiyyət və təqdimat bacarıqlarını təkmilləşdirirlər.
4. CLIL-in uğurlu tətbiqi müəllim hazırlığı və institusional dəstəklə birbaşa əlaqəlidir. Tədris proqramlarının yenilənməsi, davamlı peşəkar inkişaf imkanlarının yaradılması və metodoloji resursların təmin olunması bu yanaşmanın effektivliyini şərtləndirən əsas amillərdir.

Araşdırmanın nəticələri göstərir ki, CLIL yanaşması yalnız dil bacarıqlarının inkişafına deyil, eyni zamanda tələbələrin akademik düşünmə tərzinin formalaşmasına da əhəmiyyətli töhfə verir. CLIL mühitində tələbələr bilikləri passiv şəkildə qəbul edən subyektlər deyil, məzmunla fəal qarşılıqlı əlaqədə olan öyrənənlərə çevrilirlər ki, bu da onların tənqidi düşünmə, analitik yanaşma və elmi arqumentasiya bacarıqlarını gücləndirir.

Eyni zamanda, CLIL-in ali təhsil müəssisələrində tətbiqi beynəlxalqlaşma prosesinə xidmət edir və tələbələrin qlobal akademik mühitə inteqrasiyasını asanlaşdırır. Xüsusilə yuxarı kurslarda CLIL modelinin tətbiqi tələbələrin elmi məqalələr, konfrans təqdimatları və tədqiqat layihələri ilə daha effektiv işləməsinə imkan yaradır.

**Problemin aktuallığı.** Müasir qloballaşma və ali təhsilin beynəlxalqlaşması şəraitində ingilis dili akademik biliklərin ötürülməsi və elmi ünsiyyətin əsas vasitəsinə çevrilmişdir. Bu proses yuxarı kurs tələbələrindən yalnız ümumi dil bilikləri deyil, eyni zamanda fənn üzrə akademik oxu, yazı, dinləmə və danışıq bacarıqlarının yüksək səviyyədə inkişafını tələb edir. Ənənəvi dil tədrisi modelləri bu tələbləri tam şəkildə ödəmədiyi üçün dil və məzmunun inteqrasiyasına əsaslanan CLIL yanaşması ali təhsildə xüsusi aktuallıq qazanmışdır. Xüsusilə ingilis dili ixtisası üzrə təhsil alan tələbələrin akademik diskursda fəal iştirakı üçün CLIL-in imkanlarının elmi cəhətdən təhlili zəruri hesab olunur.

**Problemin yeniliyi.** Məqalədə CLIL yanaşması akademik dil bacarıqlarının inkişafı kontekstində yuxarı kurs tələbələrinin ehtiyacları prizmasından kompleks və sistemli şəkildə təhlil olunur.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri ali təhsil müəssisələrində CLIL-ə əsaslanan dərs strategiyalarının hazırlanması, müəllim hazırlığı proqramlarının təkmilləşdirilməsi və akademik ingilis dili tədrisinin effektivliyinin artırılması baxımındanpraktikəhəmiyyətdaşıyır.

**Ədəbiyyat**

1. Coyle D., Hood P., Marsh D. *CLIL: Content and Language Integrated Learning.* – Cambridge: Cambridge University Press, –2010. –173 p.
2. Marsh D. *CLIL/EMILE – The European Dimension: Actions, Trends and Foresight Potential.* – Jyväskylä: University of Jyväskylä, –2002. –204 p.
3. Dalton-Puffer C. *Discourse in Content and Language Integrated Learning (CLIL) Classrooms.* – Amsterdam: John Benjamins Publishing Company, –2007. –298 p.
4. Llinares A., Morton T., Whittaker R. *The Roles of Language in CLIL.* – Cambridge: Cambridge University Press, –2012. – 312 p.
5. Pérez-Cañado M. L. CLIL research in Europe: Past, present, and future // *International Journal of Bilingual Education and Bilingualism.* – 2012. – Vol. 15, No. 3. – P. 315–341.
6. Hüseynova F. Azərbaycanda müəllim hazırlığı sahəsində çətinliklər və yeni perspektivlər // *Azərbaycan Məktəbi.* – 2021. – № 4. – S. 45–56.
7. Pérez-Cañado, M. L. (2018). Innovations and challenges in CLIL teacher education. *Theory Into Practice*, **57**(3), 205–211. https://doi.org/10.1080/00405841.2018.1492238
8. Əliyeva, S. A. (2020).Ali təhsildə məzmun əsaslı dil təliminin (CLIL) tətbiqi problemləri *Azərbaycan Müəllimi.* – № 3. – S. 42–48.

**Redaksiyaya daxil olub:** 10.03.2026